# RUSİYA FEDERASİYASININ AZƏRBAYCANIN XARİCİ TİCARƏT DÖVRİYYƏSİNDƏ ROLU VƏ BU ƏLAQƏLƏRİN PRİORİTET İSTİQAMƏTLƏRİ

**Ş.T.Əliyev,**
***ADİU-nun dissertantı***

Azərbaycan Respublikasında son illər ərzində ardıcıl olaraq mühüm iqtisadi islahatların həyata keçirilməsi, milli iqtisadiyyatın ayrı-ayrı prioritet sahələrində dinamik inkişafa nail olunması, bazar iqtisadiyyatı mexanizminin işlək bir mexanizm kimi mənimsənilməsi, dünya iqtisadiyyatına sürətli inteqrasiya prosesləri, beynəlxalq və regional iqtisadi qurumlarla real inkişafla əlaqələndirilmiş əməkdaşlığın səmərəli təşkili, strateji tərəfdaş ölkələrlə ikitərəfli əlaqələrin yeni keyfiyyət müstəvisinə yönəldilməsi istiqamətində görülən əməli tədbirlər Azərbaycanın xarici ticarət dövriyyəsinin əsaslı şəkildə artmasını, xarici-iqtisadi əlaqələrin coğrafiyasının genişlənməsini və strateji tərəfdaş ölkələrlə ticarət dövriyyəsində sıçrayışı təmin etmişdir.

Statistik məlumatlara əsasən, 2005-ci ildə Azərbaycanın 137 ölkə ilə ticarət əlaqəsi olmuşdur. Ticarət dövriyyəsinin ümumi dəyəri 8547,27 mln. ABŞ dolları təşkil etmişdir ki, bunun da 4346,88 mln. dolları ixracın, 4200,39 mln. dolları isə idxalın payına düşmüşdür. Müsbət saldo 146,48 mln. dollar təşkil etmişdir. İl ərzində 2102 adda mal ixrac, 5740 adda mal isə idxal edilmişdir. Bu göstəricilərin əvvəlki illərin müvafiq göstəriciləri ilə müqayisəsi əvvəldə qeyd etdiklərimizi daha dolğun əks etdirir. Respublikamızın xarici-iqtisadi əlaqələri həm coğrafi baxımdan, həm də kəmiyyət baxımından dinamik inkişaf etməkdədir. Bunu təkcə 2004-cü ilin müvafiq göstəricilərinə diqqət yetirməklə də aydın şəkildə görmək mümkündür. Belə ki, 2004-cü ildə Azərbaycanın rezident və qeyri-rezidentləri tərəfindən 123 ölkə ilə aparılmış ticarət əməliyyatlarının həcmi 7119,04 mln. ABŞ dolları olmuş, bu müddət ərzində 1297 adda 3614,46 mln. dollarlıq mal ixrac, 5351 adda 3504,58 mln. dollarlıq mal isə idxal olunmuş, ixrac-idxal əməliyyatları üzrə müsbət saldo isə 109,88 mln. dollar olmuşdur.

Bazar münasibətlərinin yenicə formalaşmaqda olduğu bir şəraitdə ölkəmizin dünya iqtisadiyyatına sürətli inteqrasiyası xarici ticarət əlaqələrinin inkişafında mühüm rol oynayır. Tədqiqatlar göstərir ki, hazırda respublikamızın dünya iqtisadiyyatına inteqrasiyası əsasən aşağıdakı istiqamətlərdə gedir: çoxtərəfli iqtisadi əlaqələr (MDB, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM, perspektivdə Ümumdünya Ticarət Təşkilatı və s.); beynəlxalq maliyyə institutları və

**Cədvəl 1.**
**1991-2005-ci illərdə Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsinin dinamikası (mln ABŞ dolları ilə)**

| İllər | Dövriyyə | İxrac | İdxal | Saldo |
|---|---|---|---|---|
| 1991 | 4002,23 | 2120,97 | 1881,26 | 239,70 |
| 1992 | 2423,83 | 1483,97 | 939,86 | 544,11 |
| 1993 | 1353,46 | 724,66 | 628,81 | 958,55 |
| 1994 | 1430,64 | 652,73 | 777,91 | -125,17 |
| 1995 | 1304,86 | 637,20 | 667,66 | -304,58 |
| 1996 | 1591,88 | 631,24 | 960,64 | -329,39 |
| 1997 | 1575,65 | 781,31 | 794,34 | -130,33 |
| 1998 | 1682,65 | 606,15 | 1076,49 | -470,34 |
| 1999 | 1965,55 | 929,66 | 1035,89 | -106,22 |
| 2000 | 2917,29 | 1745,22 | 1172,07 | 573,15 |
| 2001 | 3745,31 | 2314,21 | 1431,11 | 883,10 |
| 2002 | 3832,88 | 2167,34 | 1665,48 | 501,92 |
| 2003 | 5218,15 | 2591,72 | 2626,43 | -34,71 |
| 2004 | 7131,43 | 3615,48 | 3515,95 | 99,53 |
| 2005 | 8547,27 | 4346,88 | 4200,39 | 146,48 |

beynəlxalq iqtisadi təşkilatlar ilə əməkdaşlıq (BVF, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və s.); ikitərəfli iqtisadi əlaqələr (ayrı-ayrı ölkələrlə); tranzit ölkə olaraq (İpək Yolu: Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi); neft hasilatçısı və ixracatçısı kimi və s.

Bu inteqrasiya istiqamətlərindən biri olan ikitərəfli iqtisadi əlaqələrdə qonşu Rusiya Federasiyası (RF) respublikamız üçün mühüm strateji əhəmiyyətə malikdir və bu dövlətin respublikamızın xarici ticarət dövriyyəsində xüsusi çəkisi vardır. Azərbaycannın xarici iqtisadi əlaqəlrinin səmərəli qurulmasında strateji tərəfdaşların müəyyən edilməsi müstəsna əhəmiyyətə malikdir. Respublikamız üçün belə strateji tərəfdaşlardan biri olan güclü iqtisadi potensiala malik RF ilə xarici-iqtisadi əlaqələrin səmərəli qurulması milli iqtisadiyyatımızın bir sıra prioritet sahələrinin inkişafına əlavə stimul və təkan verə bilər. Ölkəmizin xarici iqtisadi əlaqələrində bu dövlətin strateji əhəmiyyətə malik olmasnı bir çox amillərlə izah etmək mümkündür:

- bu ölkə ilə iqtisadi əlaqələrin qədim tarixə malik olması;
- sıx infrastruktur əlaqələrinin mövcudluğu(dəmir yolları, şose yolları, qaz və neft kəmərləri və s.);
- hər iki ölkədə uzun illər fəaliyyət göstərən iri istehsal komplekslərinin eyni standartda olması;
- ölkələr arasında miqrasiyanın yüksək səviyyədə olması və bu amilin hər iki ölkə üçün xüsusi əhəmiyyətə malik olması;
- Azərbaycanın bir sıra strateji (kənt təsərrüfatı və s.) məhsulları üçün Rusiyanın çoxsaylı regionlarının ənənəvi və əlverişli bazar olması;
- dəniz qonşuluğunun mövcüdluğu və s.

Son beş ilin statistik göstəricilərinə əsaslanaraq demək olar ki, Azərbaycanla RF arasında ticarət-iqtisadi əlaqələri dinamik inkişaf etməkdədir. 2005-ci ildə ölkələr arasında xarici-ticarət dövriyyəsinin həcmi 1002,6 milyon dollar təşkil etmişdir. Bunun 717,2 milyon dolları Rusiyadan idxal, 285,4 milyon dolları isə Azərbaycandan bu ölkəyə ixrac olmuşdur. Ötən il Rusiya ölkəmizın ümumi ticarət dövriyyəsində 11,7 faiz, ixracında 6,6 faiz, idxalında isə 17 faiz paya malik olmuşdur.

**Cədvəl 2.**

**1999-2005-ci illərdə Azərbaycanın idxal və ixracında MDB-nin və RF-nin payı (mln. ABŞ dolları ilə)**

| | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|---|
| **İdxal** | **1035,9** | **1172,1** | **1431,1** | **1665,6** | **2626,0** | **3515,9** | **4200,4** |
| o cümlədən MDB | 325,3 | 325,5 | 445,2 | 650,6 | 850,7 | 1200,5 | 1449,52 |
| o cümlədən RF | 226,5 | 249,3 | 153,0 | 280,9 | 383,9 | 569,4 | 717,2 |
| **İxrac** | **929,7** | **1745,2** | **2341,2** | **2167,5** | **2592,0** | **3615,5** | **4346,8** |
| o cümlədən MDB | 211,1 | 235,2 | 222,8 | 243,72 | 333,9 | 614,3 | 905,39 |
| o cümlədən RF | 83,0 | 98,3 | 77,5 | 95,7 | 147,8 | 209,8 | 285,4 |

2-ci cədvəldə respublikamızdan RF-na olan ixracın dinamikasına diqqət yetirsək görərik ki, son beş ildə bu istiqamətdə dinamik inkişaf olmuşdur. İxracın səviyyəsi 2001-ci ildəki 77,5 milyon dollardan yüksələrək 2005-ci ildə 285,4 milyon dollara çatmışdır. İdxal isə 153,0 milyon dollardan 717,2 miyon dollara yüksəlmişdir.

1-ci qrafikdə ixrac əyrisinə diqqət yetirsək görərik ki, 2001-ci ildən başlayaraq Azərbaycanın Rusiyaya ixracı stabil şəkildə artmaqdadır. Eyni zamanda bu qrafikdən idxalın ixraca nisbətən daha sürətlə artdığı görünür. Bu da onu qeyd etməyə əsas verir ki, ticarət-iqtisadi əlaqələrin Azərbaycan üçün səmərəliliyinin artırılması, yəni ticarət dövriyyəsindəki mənfi saldonun mütəmadi artımının qarşısının alınması üçün

zəruri tədbirlərin görülməsi vacibdir. Qrafikdəki əyrilər arasındakı məsafənin 2001-ci ildən başlayaraq əhəmiyyətli dərəcədə böyüməsindən aydın şəkildə görünür ki, bu da mənfi saldonun artım dinamikasıdır. Müxtəlif iqtisadi nəzəriyyələrə əsasən bu əyrilərin bir-birindən uzaqlaşması xoşagəlməz hal hesab edilir.

Perspektivdə bu problemin tədricən nizamlanması üçün hazırda iki ölkə arasında mövcud olana ticarət dövriyyəsinin kompleks şəkildə gücləndirilməsi təqdirəlayiq hesab edilə bilər. Bu məqsədlə, Rusiya və Azərbaycan arasındakı ikitərəfli əməkdaşlığın əsas istiqamətlərinin bazar iqtisadiyyatı və dünya təsərrüfat sisteminə inteqrasiya prosesləri prizmasından təkmilləşdirilməsi, yeniləşdirilməsi və stimullaşdırılması zəruridir. Ölkələr arasında ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi və onun səmərəliliyinin artırılması artıq 10 ildən artıqdır ki, hökumətlər arasında aparılan danışıqların əsas predmetidir. 1996-cı ildə iqtisadi əlaqələrin genişləndirilməsi və kordinasiyası məqsədilə İqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Rusiya Hökumətlərarası Daimi Komissiyası yaradılmışdır. Komissiya iki ölkə arasında iqtisadi əməkdaşlıq üzrə mövcud problemlərin tədqiqi və həmçinin bu münasibətlərin inkişafı üçün zəruri layihələrin, təkliflər paketinin hazırplanması ilə məşğuldur.

Hazırda RF-nin əksər regionları ilə Azərbaycanın sıx iqtisadi əlaqələri mövcuddur. Xüsusilə, Moskva, Sankt-Peterburq şəhərlərində, Tatarıstan və Dağıstan Respublikalarında, Sverdlovsk, Saratov, Astarxan Vilayətlərində fəaliyət göstərən çoxlu sayda iri şirkətlərin respublikamızla iqtisadi-ticarət əlaqələri mövcuddur.

2001-ci ildə RF-nın prezidenti V.Putinin Bakıya, 2002-ci ildə Azərbaycan prezidentinin Rusiyaya səfəri, həmçinin Prezident İlham Əliyevin 2004-cü ilin fevralında Moskvaya səfəri iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişafına ciddi impuls vermişdir. 2005-ci ildə Rusiyada Azərbaycan ili çərçivəsində çoxsaylı tədbirlərin keçirilməsi və 2006-cı ildə Azərbaycanda Rusiya ilinin təşkili, bu münasibətlə prezident V.Putinin çoxlu sayda sahibkarlar, dövlət məmurları ilə birlikdə respublikamıza səfəri, keçirilən biznes forumlar iqtisadi-ticarət əlaqələrinin inkişafına daha ciddi təkan vermişdir. Xüsusilə qeyd etmək lazımdır ki, bu sahədə 2002-ci ildə imzalanmış "Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında 2010-cu ilə qədər uzunmüddətli iqtisadi əməkdaşlıq Sazişi" bir sıra problemlərin həllində əhəmiyyətli rol oynamışdır. Tədqiqatlar göstərir ki, müxtəlif strateji sahələr üzrə belə sazişlərin imzalanması və onların səmərəli şəkildə icrası iki ölkə arasında ticarət dövriyyəsinin artmasında müstəsna rol oynaya bilər. Ümumiyyətlə, prinsipial olaraq bu günə qədər Rusiya ilə Azərbaycan arasında aşağıdakı istiqamətlər üzrə razılaşmalar əldə edilmiş və müvafiq sənədlər imzalanmışdır: ümumi iqtisadi əməkdaşlıq məsələləri; elmi-texniki əməkdaşlıq; maşanqayırma sahəsində əmkdaşlıq; yanacaq-energetika kompleksi sahəsində əməkdaşlıq; aqrar-sənaye kompleksi sahəsində əməkdaşlıq; müdafiə sənayesi və konversiya sahəsində əməkdaşlıq; nəqliyyat və rabitə sahəsində əməkdaşlıq; səhiyyə sahəsində əməkdaşlıq və s.

**Qrafik 1.**

**Azərbaycanın Rusiyadan idxalının və bu ölkəyə ixracının müqayisəli dinamikası, 1998-2004-cü illər (mln. ABŞ dolları ilə)**




Hazırda Azərbaycanda Rusiya kapitalının iştirakı ilə 400-dən çox şirkət, firma və

müəssisələr fəaliyyət göstərir. Onlardan 178-i birgə müəssisə kimi, 96-sı 100 faizli Rusiya kapitalı ilə fəaliyyət göstərir, 126-sı isə RF-nın müxtəlif şirkət, firma və müəssisələrinin filialları və nümayəndəlikləri kimi qeydə alınmışdır. Bununla yanaşı, hazırda Rusiya və Azərbaycanın layihə institutları Yaşma (Azərbaycan) - Dərbənd (Rusiya) İkinci Sistemlərarası Elektrik Ötürücü Xəttinin quraşdırılması üçün texniki-iqtisadi əsaslandırmalar hazırlayırlar və bu layihənin gerçəkləşdirilməsindən elektrik enerjisinin qarşılıqlı ötürülməsinin iki dəfə artırılması gözlənilir. Bu isə gələcəkdə Rusiya-Azərbaycan-İran enerji koridorunun yaradılmasına zəmin yarada bilər.

Azərbaycanla sıx əlaqələrə malik iri Rusiya şirkətlərindən biri olan "Lukoyl" 15 illik fəaliyyətini bu il qeyd edir. Şirkət Rusiyanın 60 regionunda və dünyanın 27 ölkəsində fəaliyyət göstərir. Bu şirkətin Azərbaycanla da xüsusi bağlılığı vardır. Belə ki, "Lukoyl" şirkəti Azərbaycanda bir sıra neft müqavilələrində paya malikdir. Statistik məlumatlara görə bu şirkət 1995-2003-cü illərdə Azərbaycan iqtisadiyyatına 600 milyon dollar investisiya qoymuşdur. Həmçinin "Lukoyl"un törəmə şirkətldəri respublikamızın bankçılıq və digər sektorlarına iri həcmli investisiyalar yatırmışdır. Hazırda bu şirkətlə Xəzər dənizi hövzəsində D-222 blokunda neft çıxarılması və "Şahdəniz" qaz layihəsi üzrə kəşfiyyat, qazma, əldə edilən neft-qazın pay şəkilində bölüşdürülməsi haqqında sazişlər imzalanmışdır və bu istiqamətlərdə birgə fəaliyyət göstərilir. Respublikamızda Rusiyanın nəhəng avtomobil şirkətləri olan KamAZ və QAZ-ın fəaliyyəti diqqəti cəlb edir və bu cür nümunələri artırmaq olar.

Cədvəl 3.

**2001-2005-ci illərdə Azərbaycanın RF ilə ticarət dövriyyəsinin vəziyyəti**

| | Ticarət dövriyyəsi | | İxrac | | İdxal | |
|---|---|---|---|---|---|---|
| | Mln. dol | Ümumidə çəkisi, % | Mln. dol. | Ümumidə çəkisi, % | Mln. dol. | Ümumidə çəkisi, % |
| **2001** | 230,5 | **6,1** | 77,5 | **3,3** | 153,0 | **10,6** |
| **2002** | 376,6 | **9,8** | 95,7 | **4,4** | 280,9 | **16,8** |
| **2003** | 531,7 | **10,1** | 147,8 | **5,7** | 383,9 | **14,6** |
| **2004** | 779,0 | **10,9** | 209,8 | **5,8** | 569,22 | **16,2** |
| **2005** | 1002,63 | **11,7** | 285,42 | **6,6** | 717,21 | **17,0** |

Hazırda Rusiya Azərbaycanın idxalında ən böyük paya malik olan ölkədir. 2004-cü ildə onun respublikamızın idxalında payı 16,2 faiz, 2005-ci ildə isə 17,0 faiz olmuşdur. Nəzərə alsaq ki, respublikamızın ixracında İtaliya (2005-ci ildə 30,3 faiz) və Fransa (2005-ci ildə 9,4 faiz) məhz xam neft idxalatına görə müvafiq olaraq birinci və ikinci yerdədirlər, onda bu sırada üçüncü olan Rusiya Federasiyasının (6,6 faiz) qeyri-neft sektoru üzrə Azərbaycanın ən böyük ixracat tərəfdaşı olduğunu qeyd edə bilərik. Lakin buna baxmayaraq hələ də hər iki ölkənin mövcud iqtisadi potensialları bu əlaqələrdə tam təcəssüm olunmur. Bu baxımdan bu sahədə dərin elmi tədqiqatların aparılması və bu tədqiqatların nəticələrinin ticarət-iqtisadi əlaqələrin səmərəli qurulması üçün tətbiqi aktual məsələlərdən biridir.

İkitərəfli iqtisadi əlaqələrdən əlavə Azərbaycan Rusiya ilə MDB, QDİƏT və digər qurumlar çərçivəsində də əməkdaşlıq edir. 1991-ci ildən 2004-cü ilədək MDB çərçivəsində 1386 sənəd qəbul edilmişdir. Bu sənədlərin 313-ü qüvvəsini itirmişdir. Azərbaycan Respublikası tərəfindən MDB çərçivəsində 141 sənəd imzalanmışdır. Onlardan 12-si ratifikasiya olunmuş, 75-i dövlətdaxili prosedurlardan keçmişdir. MDB ölkələri arasında 1000-dən çox dövlətlərarası, hökumətlərarası və idarələrarası müqavilə, saziş və digər ikitərəfli sənədlər imzalanmışdır. Bunlardan 100-dən artığı ölkələr arasında ticarət-iqtisadi əlaqələri tənzimləyir.

MDB ölkələrinin inkişafı üçün sabit şərtlərin yaradılması və bazar münasibətlərinin qorunaraq ümumi iqtisadi məkana tədricən keçməsinin təmin olunması məqsədilə 1993-cü ilin sentyabr ayında MDB ölkələri arasında "İqtisadi İttifaqın yaradılması haqqında" Saziş" imzalandı. Birliyin inkişafı və gücləndirilməsi məqsədi ilə müxtəlif inteqrasiya növləri təklif olundu. Nəticədə, 1994-ci ildə MDB məkanında azad ticarət zonasının, Gömrük Birliyinin, ümumi mal və xidmət bazarının, Dövlətlərarası Valyuta Komitəsinin yaradılması haqqında sazişlər imzalanmışdır.

2005-cü il ərzində MDB ölkələri ilə xarici ticarət dövriyyəsi 2354,9 milyon ABŞ dolları, o cümlədən idxal 1449,5 mln. ixrac 905,4 mln. dollar təşkil etmişdir. MDB ölkələri ilə ticarətdə Rusiya Azərbaycanın strateji və ən iri tərəfdaşıdır. Təkcə 2005-ci ildə Azərbaycanın MDB ölkələri ilə 2354,9 milyon ABŞ dolları dəyərində olan ümumi ticarət dövriyyəsinin 1002,4 milyon dolları, yaxud 42,6 faizi Rusiyanın payına düşür. O cümldən, MDB-yə olan ixracın (905,3 mln. dolları) 31,5 faizi (285,4 mln. dolları) və idxalın (1447,5 mln. dolları) isə 49,5 faizi (717,2 mln. dolları). Bu bir daha göstərir ki, Azərbaycanla Rusiya arasındakı xarici-ticarət əlaqələrinin strukturunda əsas prioritet istiqamətlərin potensiallarının araşdırılmasına və Rusiya üzrə mənfi ticarət saldosunun (-431,6 mln. ABŞ dolları) azaldılması və aradan qaldırılması üçün kompleks tədbirlərin görülməsinə böyük ehtiyac vardır.

Azərbaycan Respublikası QDİƏT-in yaradılmasının ilk mərhələsindən başlayaraq təşkilatın fəaliyyətində, Bosfor Qətnaməsi və İstanbul Bəyannaməsinin hazırlanmasında iştirak etmişdir. Azərbaycan 1992-ci ildən təşkilatın üzvüdür. Respublikamızın QDİƏT-də iştirakının əsas məqsədləri təşkilatın əhatə etdiyi regionda malik olduğu rolunun möhkəmləndirilməsindən, Avropaya inteqrasiya siyasətinin bütün ölçülərdə həyata keçirilməsindən, Azərbaycanın tranzit potensialının gücləndirilməsindən, regionun dövlətləri ilə çoxtərəfli əməkdaşlıq mexanizminin qurulmasından ibarətdir.

Azərbaycan Respublikası Albaniya və Ermənistan istisna olmaqla yerdə qalan digər QDİƏT ölkələri ilə, o cümlədən Rusiya ilə Ticarət İqtisadi Əməkdaşlıq haqqında Sazişlər imzalamışdır. Həm QDİƏT, həm də MDB üzvü olan ölkələr ilə (Gürcüstan, Rusiya, Moldova, Ukrayna) Azərbaycan Sərbəst Ticarət haqqında ikitərəfli Sazişlər imzalamışdır. Bu sazişlərdə gömrük rüsumlarının tətbiq edilməməsi, ixracat-idxalat əməliyyatlarının qeyri-tarif yollarla məhdudlaşdırılması vasitələrinin ləğvi nəzərdə tutulur.

Rusiya-Azərbaycan iqtisadi əlaqələri inkişaf etməkdə olsa da, tədqiqatlar göstərir ki, bu əlaqələr heç də hər iki ölkənin mövcud olduğu iqtisadi potensialı özündə tam əks etdirmir. 2006-cı ilin fevralında Rusiya-Azərbaycan ikitərəfli əməkdaşlığı çərçivəsində keçirilən yüksək səviyyəli tədbirlərdə Rusiya-Azərbaycan arasında ümumi ticarət dövriyyəsinin yaxın iki il ərzində 2 milyard ABŞ dollarına çatdırılması perspektivləri qeyd edilmişdir. Bu günə qədər iki ölkə arasında 130-dan çox saziş imzalanmış və bunldarın 70-i hökumətlərarası, dövlətlərarası status daşıyır. Bundan başqa, Rusiyanın iri regionları ilə əməkdaşlıq sazişləri artıq təcrübədə özünü doğruldur və bu istiqamətdə Azərbaycan hökumətinin yeni layihələri mövcuddur. Tədqiqatlar göstərir ki, aşağıdakı istiqamətlər üzrə tədbirlərin görülməsi Rusiya-Azərbaycan iqtisadi əlaqələrinin səmərəliliyinin artırılmasında xüsusi əhəmiyyət kəsb edə bilər:

- RF ilə xarici-iqtisadi əlaqələrin genişləndirilməsi, idxal-ixrac əməliyyatlarının strukturunun optimallaşdırılması, ixracın artırımının stimullaşdırılması məqsədilə bu ölkədə Azərbaycanın tam statuslu ticarət nümayəndəliyinin və Rusiyanın ərazi dairələri üzrə onun bölmələrinin yaradılması;
- Qeyri-neft sektorunun potensialının iki ölkə arasında idxal-ixrac əməliyyatları-

nın həcminin artırılmasına istiqamətləndirilməsi, sənayenin prioritet sahələrinin Rusiyaya ixracatının artırılması üçün kompleks tədbirlərin görülməsi və bu sahədəki fəaliyyətin kordinasiyasının gücləndirilməsi məqsədilə dövlət proqramlarının, digər zəruri normativ aktların hazırlanması və onların icrasının səmərəli təşkili;

- Əsas qeyri-neft sektorları olan metallurgiya, kimya və neft-kimya sənaye sahələrinin Rusiya müəssisələri ilə ənənəvi əlaqələrini nəzərə almaqla, bu sahələrin ixrac potensialını artırmaq üçün konkret tədbirlərin müəyyənləşdirilməsi (məsələn, işləməyən istehsalatların bərpası, yeni istehsalatların yaradılması, birgə istehsal-təsərrüfat kooperasiyasının qurulması və s.) və həmin layihələrin reallaşdırılmasına neft sektorundan əldə olunun gəlirlər hesabına investisiyaların ayrılması;
- Kooperasiya-təsərrüfat və ticarət-iqtisadi əlaqələrdə sürətli inkişafa nail olmaq üçün hər iki ölkənin maraqları qorunmaqla sərhədyanı zonada eksperiment sərbəst iqtisadi zonanın yaradılmasına baxılması və bu istiqamətdə praktiki modelin tapılması və təkmilləşdirilməsi üçün addımların atılması;
- Rusiyaya ixracın artırılmasında Azərbaycanın regionlarının potensiallarından istifadənin stimullaşdırılması üçün hökumət tərəfindən güzəştlər paketinin və digər müvafiq tədbirlər kompleksinin işlənib hazırlanması və həyata keçirilməsi;
- Azərbaycandan Rusiyaya ixracın artım dinamikasının təmin edilməsi üçün ixrac təyinatlı məhsulların beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində hökumət tərəfindən zəruri araşdırmaların aparılması və müvafiq tədbirlərin görülməsi;
- Rusiya ilə Azərbaycan arasında hər cür nəqliyyat infrastrukturunun mövcudluğu nəzərə alınmaqla, bu sahədə olan potensialdan iki ölkə arasında ticarət dövriyyəsinin artırılması, yükdaşınmaların səmərəli təşkili məqsədilə nəqliyyat infrastrukturu üzrə ayrıca hökumətlərarası təsisatın formalaşdırılması (komissiya, agentlik, dispedçer xidmət sahəsi, nümayəndəlik və s.);
- Aqrokompleksin potensialının Rusiyaya ixracda geniş olması nəzərə alınmaqla, bu sahədə hökumət səviyyəsində xüsusi monitorinqin, zəruri tədqiqatların aparılması və kompleks tədbirlərin işlənib hazırlanması;
- İqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Rusiya hökumətlərarası Daimi Komissiyasınınnın fəaliyyətinin təkmilləşdirilməsi və onun strukturunun xarici-iqtisadi əlaqələrin sürətli dəyişkənliyinə uyğunlaşdırılması;
- Komissiyanın fəaliyyətində aktivliyi artırmaq, onun qərarlarının icrasının gedişini izləmək üçün monitorinq qrupunun yaradılması və ildə ən azı iki dəfə kompleks tədbirlərin icrasının monitorinqinin aparılması;
- Komissiyanın iclaslarının dövriliyinin artırılması və s.

**Ədəbiyyat.**


1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi İnternet saytı: www.azstat.org
2. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin rəsmi İnternet saytı: www.economy.gov.az
3. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin rəsmi İnternet saytı: www.az-customs.net
4. Ш.Т.Алиев, "Проблемы и перспективы торгово-экономических связей Азербайджане с Россией", "İqtisadiyyat və həyat" jurnalı, № 07, Bakı-2005. səh. 19-23.
5. С.Агаев, Ш.Алиев, "Проблемы и перспективы торгово-экономических связей Азербайджане с Россией" (монография), Баку: "Элм"-2004, 280 стр.
6. Журнал "Регион плюс", /№01(01), 24 февраль 2006 г./, /№ 02(02), 06 март 2006 г./, Баку - 2006.
7. "Caspian oil and gas daily news", 6-9 iyun 2006, Bakı-2006.
8. Газета "Зеркало", /№ 32, 23 февраль 2006 г./, /№ 108, 17 июнь 2006 г./, Баку - 2006.